İPƏK YOLU, No.1, 2024, səh.220-229
https://doi.org/10.30546/1810-911X.2024.1.220

# ARZU/QORXU/XƏYANƏT STANFORD EKSPERİMENTİ KONSEPSİYASINDA (İ. Hüseynovun "Məhşər" romanı nümunəsində)

**Mələkə Rəcəbova**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: melake_elyasova@mail.ru

**Xülasə.** Məqalədə İsa Hüseynov yaradıcılığında arzu və qorxu problemi xəyanət kontekstindən araşdırılır. Bu problem iki qrup kimi klassifikasiya edilir: xəyanətə qurban gedən arzular və qorxuların səbəb olduğu xəyanətlər. Məqalədə "Məhşər" romanında "xəyanət" kateqoriyası müharibə zamanı yeni ərazilər əldə etmək arzusu ilə mübarizə aparan liderlərin öz silahdaşları tərəfindən xəyanətə məruz qalmalarının əsas səbəbinin qorxu olması motivi kontekstində araşdırılır.

**Açar sözlər:** Arzu, qorxu, xəyanət, müharibə.

**DESIRE/FEAR/BETRAYAL IN THE CONCEPT OF THE STANFORD EXPERIMENT (In the example of the novel "Mahshar" by I. Huseynov)**

**Malaka Rajabova**
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract.** In the paper the problem of desire and fear in the literary work of Isa Huseynov is investigated within the framework of the concept of betrayal. This problem is classified into two groups: desires and fears that fall victim to betrayal and betrayals caused by these desires and fears. The article explores the motif of fear as the main reason for soldiers, who fight against leaders striving for new territories during war in the "Judgment Day" novel, to be subjected to betrayal by their comrades. The category of "betrayal" in the context of the motivation for betraying one's own allies due to the desire to acquire new territories during war is examined.
**Keywords:** Desire, fear, betrayal, war.

**ЖЕЛАНИЕ/СТРАХ/ПРЕДАТЕЛЬСТВО В КОНЦЕПЦИИ СТЭНФОРДСКОГО ЭКСПЕРИМЕНТА (На примере романа И. Гусейнова "Махшар")**

**Малака Раджабова**
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме.** В данном исследовании рассматривается проблема желания и страха в творчестве Исы Гусейнова в контексте категории предательства. Эта проблема классифицируется в двух группах: нереализованное желание и страх как последствие предательства, и предательство, вызванные этими желаниями и страхами. В статье исследуется мотив страха как основная причина подверженности предательству: предательство солдат во время войны против своих лидеров, сражающихся в погоне в борьбе за новые территории, со стороны их товарищей в романе "Судный день".
**Ключевые слова:** Желание, страх, предательство, война.

## 1. Giriş

İsa Hüseynovun Sovet hakimiyyəti dövründə qələmə aldığı "Məhşər" (1979) tarixi-fəlsəfi romanı Əmir Teymurun yürüşlərindən (XIV-XV əsrlər) və bu yürüşlər zamanı insanlara qarşı amansızlığından, hürufilik təriqətinin böyük nümayəndələri olan Fəzlullah Nəiminin və şair İmadəddin Nəsiminin insan düşməninə qarşı özünəməxsus mübarizəsindən, Şirvanşah İbrahimin hakimiyyəti dövründən (1382-1417) bəhs edir. Roman bir çox tədqiqatçılar tərəfindən müxtəlif aspektlərdən araşdırılmışdır. Bu araşdırmada biz bu romanı arzu/qorxu

problemini xəyanət diskursundan təhlil edir, bu məqsədlə Stanford eksperimenti araşdrma metodunu istifadə edirik.

Bu eksperimentin məğzi belədir: Zimbardonun 15-21 avqust 1971-ci ildə Jordan Hall-un zirzəmisində həyata keçirdiyi Stanford həbsxana təcrübəsindəki məqsədi situasiya amillərinin və güc dinamikasının insan davranışına təsirini, xüsusən də fərdlərin simulyasiya edilmiş həbsxana mühitində məhbusların və mühafizəçilərin rollarına necə uyğunlaşdıqlarını araşdırmaq idi. O, həbsxanalarda nümayiş etdirilən davranışın məhbusların və nəzarətçilərin xas xüsusiyyətlərindən, yoxsa həbsxananın özünün sosial quruluşundan və mühitindən qaynaqlandığını araşdırmaq istəyirdi. Stanford həbsxana təcrübəsinin nəticələri göstərdi ki, situasiya faktorları və güc dinamikası iştirakçıların davranışının formalaşmasında mühüm rol oynayır. Mühafizəçilər kobud və avtoritar oldular, məhbuslar isə itaətkar və emosional repressiyaya məruz qaldılar. Təcrübə adi fərdlərin özlərinə təyin olunmuş rollara və ətraf mühitə görə zərərli davranışları necə tez mənimsədiyini ortaya qoydu [3; 6].

## 2. İtaət və hakimiyyətdə qorxu amili

Roman on başlıq şəklində qələmə alınmışdır. “İnkar” adlanan ilk başlıqda Əmir Teymurun yürüşlərə başlaması və qısa zaman ərzində amansızlıqla qələbələr qazanması ilə tanış oluruq. Tarixdən də bildiyimiz kimi, o insanlara qarşı rəhmsizliyi, cinayətkar əməlləri ilə dünyaya səs salmışdır. Tez bir zamanda bu qədər əraziləri ələ keçirə bilmə səbəbi də məhz insanların onun amansızlığından qorxuya düşməsi idi. “Teymur həm də rəhmsizliyi ilə dünyanı sarsıtmışdı. İnsan başından minarələri, xəndəklərə tökülüb diri-diri basdırılan minlərlə adamın sorağını alan hakimlər, Teymurun yaxınlaşdığını eşidən kimi qala divarları arasına çəkilir, fürsət varkən qaçıb qurtarmaq üçün hazırlıq görür və ya qırğının qabağını almaq ümidi ilə təslim olmağa tələsirdilər” [5, s.7-8].

Teymur Şirvanşah İbrahimlə müqavilə bağlayıb (1386) rəsmi olaraq Azərbaycanı (Aran və Şirvan) əldə etsə də, xalq təslim olmamışdı. O zamanlar, Azərbaycan hürufilərinin əsas müdafiə sığınacağı Əlincə qalası idi. Əmir Teymur öz işgəncələri ilə insanları qorxuya salmağa çalışır, qalada olanlara kömək edənləri elə cəzalandırırdı ki, qalanlara dərs olsun. Amma yenə də öz arzusuna çata bilmirdi. “Gizlin, yeraltı yollarla Əlincəyə əsləhə və azuqə daşıyan əhalidən beş yüz nəfər kişi seçib, şəhərdə Ziyamülk günbəzi adlanan məbədgaha doldurmuş və pəncərələrdən uzun müddət az-az saman tüstüsü buraxaraq, işgəncə ilə boğdurmuşdu ki, bu qırğın salamat qalanlara ibrət olsun” [5, s.8].

“İ. Hüseynovun “Məhşər” romanında isə tarixi şəxsiyyətlərlə yanaşı, dövrün fəlsəfəsi, xarakteri bütün reallığı ilə üzə çıxır. Maraqlıdır ki, yazıçı bu əsərində bir neçə tarixi şəxsiyyəti təsvir etmişdir. Teymurləng, Şirvanşah İbrahim, Nəimi, Nəsimi, Miranşah və başqa tarixi şəxsiyyətlərin obrazını yaradarkən yazıçı müxtəlif mənbə və məxəzlərdən bəhrələnmişdir. Yazıçı obrazların yaradılmasında ənənəvi deyil, özünəməxsus yolla getmiş, hadisələrin və şəxsiyyətlərin təsvirində fəlsəfi, tarixi və bədii düşüncə elementlərindən paralel şəkildə istifadə etmişdir” [1, s.70].

Fəzlullah Nəimi (1339-1401) ilə düşmənçilik isə qalanın ətrafında tapılan "papaq" ilə başladı. "Bu papaq İran və Azərbaycan əsnafının[1] "Fəzl" adlandırdığı din düşməni kafir Fəzlullah əl-Hürufinin müridlərinə məxsusdur" [5, s.9]. Əsərdə qeyd olunur ki, Teymur Fəzlullah adını və hürufi kəlməsini eşidən kimi, tez zamanda səfər elan etmişdi. Şirvanşah İbrahim üzdə Teymura dəstək olduğunu göstərsə də, əslində o da hürufilik təriqətinin yayılmasına çalışırdı. "Şirvanşah İbrahim bu qüvvəyə nəinki toxunmurdu, əksinə, yalnız özünə məlum olan səbəblərə görə, hətta onun artıb yayılmasına da kömək edirdi" [5, s.11]. Şirvanşah İbrahimin oğlu Gövhərşahı "Əmin Məhrəm" adı ilə hürufilərə köməyə göndərməsi də əsaslı sübut idi. Çünki Şirvanşah İbrahim Şeyx Fəzlullaha və onun elminə Teymurilərə qarşı bir silah kimi baxırdı, amma bu məsələni öz doğma oğlu Gövhərşahdan da gizlədirdi.

Amma elə bir məqam yetişdi ki, Şirvanşah İbrahim Əmir Teymura öz sədaqətini sübut etmək, Vəliəhd Miranşahın onu xəyanətkar adlandırmasının qarşısını almaq üçün Fəzli hökmdara öz əli ilə təhvil vermək qərarına gəldi. İbrahim bu addımı atmasa, Miranşah onun xəyanətini sübut edərək öz arzusuna çatacaq və ya İbrahim hürufilərə dost deyil, düşmən olduğunu sübut edərək böyük bir fəlakətini qarşısını alacaqdı. Amma artıq gec idi, çünki "döyüş meydanına atılan papaq, məsciddə qurma sui-qəsd" məsələsi də düşmənə məlum idi. "Bəla ondadır ki, Miranşah bu işlərdən xəbər tutub və atasına xəbər göndərib ki, papaq sənin Əlincə qalasına köməyini gizlətmək, sui-qəsd isə bizimlə əlaqəni pərdələmək üçündür" [5, s.32]. Şirvanşah İbrahimə artıq məlum idi ki, bu məsələdə "xəyanət" var; xəyanətin reallığının qorxusunun səbəbi özünün də zamanında Kəsrani xanədanına Huşəngin təbəələrinin xəyanəti nəticəsində qalib gəlməsi idi. Şirvanşah İbrahimə Əmir Teymura təslim olduğunun sübutu üçün qala qapılarının çıxarılması əmri gələndə də o, Qazi Bəyazidə belə demişdi: "Mənim qələm təbəələrimin qəlbindədir, əgər təbəələrim mənə axıra qədər sədaqətli olub ürəklərinin qapılarını xəyanət üzünə açmasalar, şəhər qapılarının açıqlığından qorxmaram" [5, s.33]. Xəyanət ilə hakimiyyətə gələn İbrahimin əsas qorxusu xəyanət idi.

Xəyanətə əl atmağa çalışaraq, yeddi il qoruduğu Fəzli qurban verməyə hazır olan İbrahim şah sonda Şeyx Əzəmin xəyanətinə məruz qaldı. İbrahim şahın sarayına gələn hürufilik təriqətinin elçiləri Şeyx Əzəm tərəfindən tutularaq həbs edildi. Beləliklə, Əmir Teymur hərbi güc ilə bərabər, hiyləgərlik - xəyanətlərin, işgəncələrin sayəsində qələbələr qazanması kimi, eynilə Şirvanşah İbrahimin də bütün qələbələrinin və məğlubiyyətlərinin mərkəzində "xəyanət" dururdu.

## 3. Haqq və xəyanət arasında: öz övladının sağ qalmaması qorxusu ilə diri-diri divarlara hörülən insanları unudulması

Romanın "Etiqad" adlanan ikinci hissəsində Şeyx Əzəmin nə üçün Əmir Teymura kömək etdiyinin şahidi oluruq. İlk baxışda Şeyx Əzəm üçün Əmir Teymur müqəddəs bir insan idi. Bu səbədən o, Əmir Teymurun hüzuruna gəlib ondan kömək istəyir. "Əmir Teymur isə

[1] Əsnaf – "sinif" sözündən; peşəkarlar

insaflı və ədalətlidir, başı üzərində peyğəmbərin cənnət rəmzi yaşıl bayrağını gəzdirir, əlində islamın həq qılıncını, həq yolundan azanlara, dinsizlərə, nacinslərə divan tutur, zülm və zillət çəkmiş Məhəmməd hümmətini qanadının altına yığıb pənahında saxlayır" [5, s.54]. Əmir Teymura bir xilaskar kimi baxan Şeyx Əzəmin bütün ümidləri puça çıxdı. Çünki yeganə övladı olan Şəms qırğına məruz qalmış əhali arasında itmişdi. Bu zaman o, Əmir Teymura lənət belə oxumağa hazır idi. Amma övladının tapılmasından sonra o bütün qırılan insanları unudub, yenidən ona sitayiş etməyə başladı. Beləliklə, Şeyx Əzəmi də düşündürən, qorxuya salan bircə övladı Şəmsin taleyi idi. Haqq tərəfdarı olan, özünü xalqın keşiyini çəkən bir insan kimi göstərən Şeyx Əzəm diri-diri divarlara hörülən insanları "unutmasının" səbəbini bu qorxu ilə izah etmək olar. Şeyx Əzəm ilk böyüyüb başa çatdığı Məlhəm ocağının məhvinə öz gözləri ilə şahid olmuş, doğmalarını o qırğında itirmişdi və məhz bu səbəbdən özünə möhkəm arxa-dayaq axtarırdı. "Allah-təala Əmir Teymuru bütün cahangirlərə qənim yaradıb" kəlməsi Şeyx Əzəmin Əmir Teymura pənah aparmasının, səcdə etməsinin başlanğıcı idi. Miranşahın yanına gedib ona təzim etdikdən sonra, Şeyx Əzəm artıq sadə bir xalq nümayəndəsi deyil. O ilk moizəsində belə deyir: "İnsan həq yolundan azıb, həris, nacins və murdar olub. İsfahanda, Təbrizdə qırğınlar Allah-taalanın öz buyruğudur və Əmir Teymurun əməli həq əməlidir" [5, s.61].

Bu epizodla İsa Hüseynov yalançı din xadimlərini də ifşa etmiş, qorxunun insanı necə dəyişə biləcəyini, yaxşılıqdan pisliyə bir addımda necə keçildiyini oxucusuna çatdırmağa bacarmışdır.

Birinci fəslin sonunda Şeyx Əzəmin İbrahimə xəyanətinin səbəbi bəlli olur. İbrahim şah ağıllı insan idi, o bilir ki, Əmir Teymura xəyanəti onun məhvi demək idi. Bu anda o, fənd işlədərək, Şeyx Əzəmin özünü günahlandıraraq bütün baş verənlərin günahkarının o olduğunu qeyd edir və, beləliklə, o, Fəzlullahın elçilərini ölümdən qurtarır. Əvvəl Şeyx Əzəm özünü və övladını qurtarmaq üçün gözü qarşısında baş verən müsibətləri danaraq Əmir Teymuru günahsız elan etmişdisə, indi də özü o yalanın qurbanı olur.

## 4. Gerçəkləşə bilməyən arzular

Romanın "Təcrid" adlanan hissəsində biz Nəsimi ilə Fatmanın gerçəkləşə bilməyən arzularının şahidi oluruq. Fatma Fəzlullah Nəiminin qızı və varisidır. Lakin bu varislik məsələsi Nəsimi ilə Fatma sevgisində böyük əngəl idi. Xəlifələrin fikrincə, Fəzl öldükdən sonra onun ruhu varisi Fatmada yaşamalı, sonrakı nəsillərə köçürülməli idi. "Buna görə də Fəzl varisi Fəzlin özü qədər kamil olmalı və ən ali kamillik meyarında- məhəbbətdə səhv etməməli idi" [5, s.73]. Əks təqdirdə, vəhdət arzusu məhv olar və insan kamilləşmək əvəzinə cahilləşə bilər. Fatmanın təcrid buyurulması xəbəri Nəsiminin gələcək arzularının məhvi demək idi. Nəsimini çıxılmaz vəziyyətə salan və dərvişliyə getməsinə əsas səbəb isə, Nəiminin bu fikrə etiraz etməməsi, xəlifələrlə razılaşması idi. Əsərdən məlum olur ki, Nəimi bu fikir ilə ona görə razılaşır ki, bu təcrid müvəqqəti idi.

Bəzi müridlər isə Fəzl ruhunun Nəsimiyə keçəcəyinə inanır, əbədiyyəti iki qəlbin qovuşmasında görürdülər. Buna görə onlar, varisə şəxsən nəzarət edən Yusifdən qorxmayaraq

Fatmanı gizlin yollarla gətirərək Nəsimiyə qovuşdurmağa müvəffəq olmuşdular. Amma bu xoşbəxtlik də çox çəkmədi, Fatmanın "Təcrid hökmdədir" [5, s.79] kəlməsi uzun müddətdən sonra sevdiyini görərkən Nəsiminin qurduğu bütün arzuların, xəyalların puça çıxması idi.

Bu hissənin sonunda artıq İbrahim şahın adamlarının hürufilərin arasında ixtilaf olduğunu hiss edir, bu fikir ayrı-seçkiliyi isə, Fəzlin ən sevdiyi, güvəndiyi xəlifəsi Nəsimi ilə bir sıra xəlifələr arasında baş verir.

### 5. Etdiyi günahlardan doğan qorxular

Romanın "Qorxu" adlanan hissəsində Miranşahın öz arzularına çatmaq üçün etdiyi günahlardan doğan qorxularının şahidi oluruq. Miranşahın və ümumilikdə bütün teymurilərin məqsədi Əlincə qalasını ələ keçirmək olsa da, onlar buna heç bir vəchlə nail ola bilmirdilər. Miranşahın "dəli" olmasının da səbəbi bu idi. O, hansı yola əl atsa da, İbrahim şah onun Fəzlullahı məhv etmək arzusunu ürəyində qoymağı bacarırdı. Söyləmlərə görə, Miranşahın xəstəliyi anadangəlmə idi, amma bu xəstəlik hər an özünü göstərmirdi, nə zaman o, çətinə düşsə, məğlub olmaq hissi onu məhv edirdi. "Əlincədə döyüş meydanından hürufi papağı tapılıb hökmdara göndərildiyini və Şamaxıda şah məscidində İbrahimə qəsd edən adamın cibindən hürufi açarı çıxdığını eşidib, bundan sonra İbrahimin xəyanətini heç cür sübuta yetirə bilməyəcəyini anladıqda o, ilk dəfə köhnə mərəzənin oyanmağa başladığını hiss etdi" [5, s.91].

Miranşahın qorxularından biri hökmdarın "Şirvanşahın köməyi ilə Fəzlullahı tutmaq, doqquz naməlum şəhərdə hürufi ocaqlarının doqquzunu da tapıb dağıtmaq və hürufilərin kökünü kəsmək" [5, s.92] əmrini yerinə yetirə bilməcəyi idi ki, bunun mümkünsüz olduğunu özü də yaxşı anlayırdı. Əmir Teymurun "Tüzik" ("Düzüm") kitabında qeyd etdiyi kimi, "varislərə ölüm cəzası yoxdu, səltənətə xəyanət edən, zərərli iş görən və ya əmrə əməl etməyən varis, ancaq rütbədən və varidatdan məhrum edilməli idi" [5, s.92] qaydası Miranşah və qardaşlarına görə, onları qorxutmaq və pis əməllərdən çəkindirmək üçün yazılmışdı. O, (Miranşah) başa düşmürdü ki, gün gələcək və qanuna əməl etmədiyi üçün "ölüm" onun üçün ən gözəl qurtuluş yolu olacaqdı.

Miranşah Sultaniyyə ətrafındakı düşərgədə qoşuna yürüş əmri verərək, şəhər, kənd, mədrəsə, məbədgahda qarşısına çıxan hərşeyi məhv edərək, qadın, kişi, qoca, cavan - rastına çıxan hamını qılıncdan keçirdi. Bununla da kifayətlənməyərək, Təbrizin şöhrətli məscidlərini dağıdaraq, məscid əhlini qılıncdan keçirdi. Sonra isə onun məscidlərini dağıtmasını eşidib yanına gələn Ərmən kahinlərini yeməklə təmin etdi.

Romanda qeyd olunur ki, Miranşahın səhv addımlarının bir səbəbi var idi: qorxudan doğan çılğınlıq. "Qorxudan xəstəlik - başağrısı əmələ gəlmişdi, başağrısından səhvlər, səhvlərdən ümidsizlik, ümidsizlikdən isə çılğınlıq törəmişdi" [5, s.96]. Miranşahın Fəzlullahı və onun müridlərini tutub şaha təhvil vermək üçün yazılan məktubuna İbrahimin "İndi qışdır. Yaz açılsın tutub göndərərik" [5, s.96] cavabı onu son həddə çatdırdı. Bu zaman Miranşah hökmdardan izinsiz ordunu Ərməndə başlı-başına Şeyx Əzəmin yanına gəlməsi ilə birinci

günahını işləmiş oldu. Bunun ardınca o, ikinci günahını işlədi ki, Əlincə qalasından hökmdara xəbər gətirən çaparlar vəliəhdi yerində tapmayınca Ərməndə toplaşıb qalır və qala haqqında məlumatlar hökmdara yetişmirdi. Və İbrahimin xəyanətinə ən yaxşı sübut olan Fəzl elçilərinin zindana salındığı zaman səm[2] suyundan içib məst olduqları üçün o, bahadırları qamçılayaraq cəzalandırdı, bu isə onun üçüncü günahı idi. Bütün bu günahlar onu ən böyük qorxusuna doğru aparırdı.

Şeyx Əzəmin yanına gedən Miranşah, ona sübut üçün təqdim ediləcək hürufi kitablarını görməyincə dördüncü və ən böyük səhvini edərək, Şeyx Əzəmin qızına qarşı zor işlətdi. Onun xəbəri yox idi ki, atası - Əmir Teymur hələ uşaq ikən mollanın ona qarşı olan səhvinə görə onu döyüb-qaçmış və on iki yaşından müharibələrdə olmuşdur.

Bu hissənin sonunda biz Miranşahın bütün səhvlərinin dərviş Asir tərəfindən Əmir Teymura çatdırılmasının və öz vəliəhdi belə olsa, qanunu pozmasına görə onu necə cəzalandırmasının şahidi oluruq. Buradan belə bir nəticəyə gəlirik ki, öz məqsədləri yolunda amansız əməllər törədən hər bir kəs sonda öz cəzasını çəkəcəkdir. Və biz Miranşahın öz qorxularının qurbanına çevrildiyinin şahidi oluruq.

### 6. Allahdan qorxmaq yox, onun varlığını dərk etmək lazımdır

"Tənhalıq" adlanan hissədə biz Əmir Teymurun hərbə başlaması fitvasının nələrə səbəb olacağının, kimlərin qorxub kənara çəkilməsinin, kimlərin isə mübarizəyə davam etmək istəməsinin şahidi oluruq. Bu xəbəri eşidən bütün əhalinin canına qorxu düşmüşdü, hamı bilirdi ki, Əmir Teymurun hərbə başlaması böyük fəlakətlərə səbəb ola bilər. Şirvanşah İbrahim başa düşürdü ki, bu onlara bir xəbərdarlıqdır. Əmir Teymurun Dərbəndi buraxıb Şirvana gəlməsi Toxtamışın Azərbaycana yolunun açılması demək idi. Əmir Teymur belə bir səhvə yol verə bilməzdi. Amma Fəzlullahın və elçilərinin tutulub onlara təhvil verilməsini istəməsi xəbəri doğru idi. Son anda onlar Teymurun hücumunun doğru olduğunu anladıqda İbrahim şah Fəzlin yerini öyrənmək istədikdə, güvəndiyi oğlu Gövhərşah Fəzlin laməkan olduğunu söylədi, ən pisi də o idi ki, onu laməkan edən şahın öz oğlu idi.

Əmir Teymurun hücuma başlaması İbrahim şaha başqa bir çıxış yolu qoymadı, Fəzli qorumaq üçün onun qapısına gələnlərə silah verməyi rədd etməklə, şah təkcə hürufiləri qarşısına almadı, o həm də oğlu Gövhərşahı iki yol ayrıcında qoydu. Bu günə qədər hürufilərlə bütün danışıqları o, oğlu vasitəsilə aparmışdı, indi isə o oğlunun fikrinə şərik çıxmayaraq onu hürufilərin nəzərində bir heç etdi. İbrahim şah bilirdi ki, hürufiləri silahla təmin etmək, Əmir Teymurla döyüşə rəvac vermək idi. Şirvanşah İbrahim indi başa düşürdü ki, zamanında böyük səhv edib. Öz əli ilə oğlunu hürufiliyə yönləndirib. İndi ən böyük qorxusunu yaşayırdı, çünki doğma oğlu onunla razılaşmır, Fəzlin müdafiəsinə çalışırdı.

Bu hissədə biz Nəsimi ilə Yusif arasındakı fikir ayrı-seçkiliyinin şahidi oluruq ki, Nəsimi silah gücü ilə deyil, elmin gücü ilə qalibiyyətə çalışır, onun əksinə, Yusif artıq "Rəmzi qılıncın dövranı qurtardı. İndi silah məqamıdır" [5, s.131] deyərək Fəzlin silah yolu ilə xilasına

[2] Səməni suyu - xumarlandıran içki

inanırdı. Nədənsə Nəsimi Fəzl tərəfindən bütün mühafizə işlərindən kənarlaşdırılmışdı. Fatma ilə söhbətində Nəsimi silah ilə mübarizənin sonda Fəzl günü elan olunduqda səltənətin cahillərin əlinə keçəcəyini, elmə, vəhdətə, əbədiyyətə inamın yerini zora etiqad əvəz edəcəyini, qılınc və qorxunun hakim olacağını öncədən duyduğunu qeyd edirdi.

"Allahdan qorxmaq yox, onun varlığını dərk etmək lazımdır. Kamilliyin insana xas olmasını deyən şair ona işarə edir ki, Kamil insan Allahın buyurduğu düz yolla getməlidir. Yəni Allahını dərk edən kəs qorxduğu üçün yox, vicdanının təmiz olması üçün heç bir kəsə zərər yetirməməlidir. İsa Muğanna isə insanları saflaşmağa səsləyir. Buna görə də "SafAğ" elminin dünyada yayılmasını istəyirdi. Mahiyyət etibarı ilə kamil və saf insan anlayışlarının məqsədi eynidir. Həm Nəsimi, həm də İsa Muğanna insanları cəhalətdən və qorxudan uzaq duraraq elmə istinad etməyə çağırırdı" [4, s.92].

"İxtilaf" başlıqlı hissədə biz Fəzl və onun müridləri arasında yaranan fikir ayrı-seçkiliyinin, xəyanət iddialarının, özbaşnalıqların şahidi oluruq ki, bütün bu məsələlərin mərkəzində qorxu hissi dururdu. Ən əsası isə Fəzli itirmək qorxusu idi ki, bu vacib məsələ ixtilaflara səbəb olmuşdu və bunun qarşısını heç Fəzlin özü də ala bilmirdi.

Bu hissədə artıq müridlərin bütün tədris işlərinin dayandırılmasının şahidi oluruq ki, bu məsələ onları çox narahat edirdi. Və bu narahatçılıqların ilk başında Fəzlin "Div qapısının açarı" adlandırdığı Mövlana Mahmudun yoxa çıxması məsələsi dururdu. Sonradan məlum olur ki, xəlifələrin Fəzlin təslim olması haqqında gətirdikləri məktubu çıxararaq Mövlana Mahmud onlara öz etirazını bildirmiş və bu məsələdən sonra qeybə çəkilmişdir. Müridlərə ən ağır xəbəri Dərviş Həsən gətirərək, onlara Fəzlin təslim olmaq istədiyini bildirdi. Bu xəbər müridlər arasına böyük çaxnaşma saldı, Fəzlin təslim olması, hürufiliyin süqutu demək idi. Təslim olmaq məsələsinin mərkəzində "xəyanət" dururdu. Fəzl müridlər arasında bu xəyanətin olmasını dansa da, sonradan Mövlana Tacəddin ilə söhbətində xəyanətin doğru olması aşkara çıxır. Fəzl başverən bütün ixtilafların əsas səbəbini izah edərək belə deyir: "yer üzündə axırıncı hökmdar qurşağına taxta sılın bağlayana qədər elm yayılmalıdır: nə qədər ki, ordular tərk-silah deyillər, nə qədər ki, təhlükə və qorxu mövcuddur karvanda təbəddülat da davam edəcəkdir" [5, s.170].

Beləliklə, uzun müddət Fəzlə xidmət edərək əllərinə rəmzi qılınc (taxta qılınc) alaraq hürufiliyi tədris edən müridlərin indi silah vasitəsilə vuruşmaq arzusu Fəzlə çox ağır gəlirdi və o, öz fikrini bu cümlə ilə tam ifadə edir: "Əgər qorxu əlinə qılınc alıbsa, deməli qan töküləcək" [5, s.154].

"Vəhdət" adlı başlıq haqqında qısaca onu qeyd etmək istərdik ki, burada biz İbrahimin "vahid səltənət" yaratmaq arzusunun zamanında Dərbəndlilərə verdiyi sözdən irəli gəldiyinin şahidi olur və Fəzlin "Xoşbəxtlik işi" adlandırdığı məsələ haqqında atmaq istədiyi addımların kimlər tərəfindən, hansı şəkildə dayandırıldığını öyrənirik. Onu da qeyd edək ki, İbrahimin "Təbriz dövrəsində vahid səltənət" yaratmaq arzusu zamanında Kəsraniləri devirməsi ilə Teymurun İrana yürüşünün eyni vaxta düşməsi məsələsinə görə arzu olaraq qalmışdı. İllər sonra

İbrahimin bu məsələ ilə bağlı fikrini Nəsimi yeniləmişdi. Bu məsələnin həlli üçün indi əsas vacib məsələ Fəzlin təslim olması idi.

Romanın əvvəlki hissəsində Fəzlin təslim olması xəbəri müridlər arasında necə çaxnaşma salmışdısa, bu hissədə də biz bu məsələnin davamının şahidi oluruq. Fəzlin "Xoşbəxtlik işi" adlandırdığı məsələ bundan ibarət idi ki, Fəzl təslim olandan sonra Adıyüksək (İbrahim) Divə (Əmir Teymura) "qəfəsin qapısını bağladığını"- Fəzlullahın tutulması xəbərini göndərməklə, Əmir Teymuru arxayınlaşdıracaq və onun Toxtamış ilə hərbə başlamasına təkan verəcəkdi. Və bu müddət Fəzlin fikrincə, onlara hürufilik elmini yaymaq üçün zaman qazandıracaqdı. Fəzl müharibə olmasını istəmir, hürufilik elmi ilə onları təhlükəsizləşdirməyi qarşısına məqsəd qoymuşdu. Amma hərşey onun istədiyi kimi olmadı, qorxduğu başına gəldi. Bu məsələlərdən xəbər tutan Nəsimi, Fəzlin düşmən içinə getmək məsələsinə etirazını bildirdi. Fəzli öz yolundan döndərmək asan məsələ deyildi, bunu sadəcə Nəsimi bacara bilərdi. Fəzlin "İşlərimiz elə gətirib ki, düşmən içində indi məni heç kəs əvəz edə bilməz" kəlməsi sanki Nəsimiyə bir işarə idi. Çünki hər zaman o, özünü Fəzl ilə eyniləşdirir, "Fəzlin siması necədir?" sualına "Mənə baxın, Fəzli görün" [5, s.199] deyə cavab verirdi. Nəsiminin düşmən tərəfə getməsi xəbərini alan Nəiminin faciəsi son həddinə çatmışdı ki, "xəlifələrin yeddisi üz döndərmiş, səkkizincisi itkin düşmüş, doqquzuncusu isə cismində həq ruhunu qoruyub silsiləni yaşatmaq əvəzinə, hüdudsuzluq alan kimi düşmən içinə - aşkar ölümə getmişdi" [5, s.204].

**7. Nəsimi "Güclü, gücsüz insan yoxdur, əmir! Cahil var, kamil var.**

"Div hüzuru" başlıqlı hissədə biz Əmir Teymurun hədə-qorxusu ilə Şirvanşah İbrahimin öz hakimiyyətini və oğlu Gövhərşahı qurtarmaq üçün Fəzli və müridləri qurban verməyə hazır olmasının, Nəsiminin bu məsələnin həlli üçün qorxu bilmədən "Div hüzuruna" getməsinin və müvəqqəti qələbəsinin şahidi oluruq.

Əmir Teymurun hərb ilə gəlməsini eşidib qorxuya düşən Şirvanşah İbrahim nə qədər böyük karvanlarla, cəvahiratlarla Teymurun hüzuruna getsə də, onu fikrindən daşındıra bilməməklə yanaşı, "o, təxtini Fəzlullaha verib!" [5, s.209] deməklə, onu oğlunun- Gövhərşahın hürufilərlə əlaqəsini qeyd edərək, hədələməklə qalmadı, üç günlük möhlət verərək onun ən böyük qorxusu olan məsələni, hürufilərin Şirvanda kökünü kəsməsini tələb etdi. Bu tələb İbrahimin yeddi illik arzu və diləklərinin məhvi demək idi, amma artıq başqa çarə qalmamışdı...

Şirvanşah İbrahimə xəyanət sayılsa da, oğlu Gövhərşah öz məramından dönməyərək atasının hürufilərə qarşı münasibətini Nəsimiyə çatdırıb, Fəzldən çarə istədi. Nəsimi öz mənəvi gücünə güvənərək, Divin hüzuruna getmək qətiyyətindən əl çəkmədi, əsas məqsədi Əmir Teymurun bətnini təmizləməklə, onun hürufilərə olan münasibətini dəyişmək idi.

Nəsiminin müvəqqəti qələbəsi onun doğru bildiyi amal uğrunda, qorxmadan mübarizəsinin bəhrəsi idi ki, ona verilən işgəncələrə baxmayaraq, o, Əmir Teymurun qarşısında dik durub sözünü deməyi bacarmışdı. Nəsimi bilirdi ki, Əmir Teymurun hürufiləri məhv etməkdə əsas səbəbi onlardan qorxması idi, zamanı gələndə İbrahim onların əli ilə onu məhv edəcəkdi. "Ağız bağlamaq hökmdarın acizliyidir, Əmir Teymur! Mənim dilimdən yox, sənin

bəlan İldırım Bəyazidin, Sultan Əhməd Cəlarinin, Qaraqoyunlu Yusifin və qeyri-hökmdar, hakim və sərgərlərin qılınclarından gəlir! Məni dinləyib Fəzl məramından xəbər tutmasan bu xəndəklərin arasında ordunla məhv olacaqsan!” [5, s.234] cümləsi ilə Nəsimi Divi Divin öz silahı - qorxusu ilə əsir aldı.

Nəsimi öz sözləri ilə Əmir Teymuru hansı cəhətlərdən yaralamağı yaxşı bilirdi. Qorxu yaratmaqla özünü məhv etdiyini, vəliəhdi Cahangirin qorxu qurbanı olduğunu, digər oğlu Miranşahın qorxu əsirliyində, diri ikən ölü olduğunu qeyd edərək, onun özünün də cəhənnəm odu içində xəndək arasında oturduğunun əsas səbəbinin qorxu olduğunu qeyd etdi. Əmir Teymurun “Qoyun qurddan qorxur... Gücsüz adam güclüdən” fikrinə qarşı Nəsimi “Güclü, gücsüz insan yoxdur, əmir! Cahil var, kamil var. O kamillərdən birisi sənin hüzurundadır, bax gör üzümdə qorxudan bir əlamət taparsanmı, əmir?” [5, s.237] deyərək, ondan qorxmadığını sübuta yetirməyə müvəffəq olmuşdu.

Nəsimi Fəzlin məramında silah olmadığının, onun ən güclü silahının sözü olduğunu, Fəzlin və müridlərin məhvinin Əmir Teymurun və ordusunun məhvinə səbəb olacağını, Fəzl xəlifələrinin öz əqidələrindən dönmələrinin səbəbkarının Anqara valisi Hacı Bayramın olduğunu sübut etməyə çalışırdı. Sonda o, Əmir Teymuru inandırmağı bacardı və Fəzlin tapşırığı ilə Rumda hərb ocaqlarını söndürməyə getməli olduğunu bildirdi. Əmir Teymur onun Rumdan qayıdana qədər Fəzli öldürülməməsinə, ancaq zindanda girov qalmasına güzəştə getdiyini bildirərək sözünü bitirdi.

“Təslim” adlı hissədə biz Nəsiminin Divin hüzurundan sonra Şirvanşah İbrahimin yanına gəlməsinin, onun bütün səhvlərinin qorxularından irəli gəldiyini və bu səhvlərin nəticəsində öz doğma övladı Gövhərşahı da, yaxın adamı Hacı Firudini də itirə biləcəyini duyurmuşdu.

Bir zamanlar Əmir Teymurun hüzuruna gedəndə “Hədiyyələrin üstündə öz başımı gətirmişəm” [5, s.270] deyən İbrahim şahdan əsər-əlamət qalmamışdı. İndi o, həqiqətən də Miranşaha çevrilmiş, Fəzlin və müridlərinin qanını tökməyi qarşısına məqsəd qoymuşdu. Nəsiminin gəlişi onda ikitərəfli qorxu yaratmışdı, dinlə birgə hakimiyyətinin də əldən getdiyini açıq-aydın dərk edir, indi hürufilər onun gözündə əli qılınclı düşməndən də daha qorxulu görünürdülər. Çünki onlar İbrahim hakimiyyətini, dinini qılıncsız, qansız əldə etməyə müvəffəq olmuşdular. İbrahim şah özü də qeyd edirdi ki, artıq ətrafında hürufi olmayan bir kəs də qalmayıb.

Romanın son “Qətl” adlı hissəsində biz Fəzlin və müridlərinin başına gələn fəlakətlərin, İbrahimin son anda hürufilərin xidmətində durmasının, amma artıq hərşeyin gec olmasının şahidi oluruq ki, Fəzl Əmir Teymurun oğlu Miranşah tərəfindən qətlə yetirilir. Əsərin sonunda Ədalət səltənətinin hələ yaranmamış qan içində boğulub məhv olmasını, yeni-yeni müharibələr, qırğınlar məkanına çevrildiyini görürük. Və əsərin sonunda Əmir Teymur kimi bir hökmdarın da hürufilərə inamının şahidi oluruq ki, səlnaməçilərin dediklərinə görə, hökmdarın yanında hürufilər əyləşdirdi.

"“Məhşər” əvvəlcədən hazır, müəyyənləşmiş, məlum bir qənaətin sadəcə illustrasiyası deyil. Qəhrəmanları ilə birlikdə yazıçı özü də roman boyu düşünür, dövrün siyasi mənəvi mənzərəsini təhlil edir, fərqli mənbələrin məlumatlarını tutuşdurur, həmçinin tarixi həqiqət üzrə öz versiyasını, öz ehtimalını qətiyyətlə irəli sürür. Buna görə “Məhşər” əsərini roman-tədqiqat da adlandırmaq mümkündü” [2, s.155].

**Nəticə.** Beləliklə, romanda baş verən müharibələrin və gərgin zamanda hakimiyyət başçılarının öz yaxın adamları tərəfindən xəyanətə uğramasının səbəblərindən biri qorxu idi. Əsərdə hakimiyyətlərinin əldən getməsi qorxusu, yeni-yeni ərazilərə sahib olmaq arzusu sonda hamısının məhvinə gətirib çıxardı. Belə bir nəticəyə gəlirik ki, xəyanətə səbəb olan arzularımızla yanaşı, xəyanətdən doğan qorxularımız da yaşamımıza mənfi təsiri eynidir. Bəzən bu arzu və qorxularımız sayəsində istəmədən sevdiklərimizə ziyan vura bilir və ya onların ölümünə səbəb ola bilirik.

## Ədəbiyyat


1. Əsgərov B. (2016), İsa Hüseynovun Məhşər romanında tarixi şəxsiyyətlərin bədii obrazı. Ədəbiyyat məcmuəsi (Nizami adına Ədəbiyyat İnstitutunun Əsərləri), XXVII c. Bakı: Elm və təhsil, 69-75.
2. Hüseynov A. (1987), Məhşər Haqqında Qeydlər. Bakı: Azərbaycan. No.2, 155-167.
3. Mcleod S. Stanford prison experiment: Zimbardo’s famous study. https://www.simplypsychology.org/zimbardo.html
4. Mikayılov Ü. (2021), Məhşər romanına avtobioqrafik prizmadan baxış. Azərbaycan Ədəbiyyatşünaslığı, No.1, 90-95.
5. Muğanna İ. (2009), Seçilmiş əsərləri: 6 cilddə. Bakı: Avrasiya Press, No.3, 304.
6. The Stanford Prison Experiment. https://www.prisonexp.org/